**İki sahil.** - 2023. - 24 may. - № 90. - S. 7.

# Müstəqilliyimiz əbədi, sarsılmaz və dönməzdir!

**Xuraman İsmayılqızı**

**Bu əminliyi xalqda yaradan, suverenliyimizin qarantı Ulu Öndər Heydər Əliyevə raport verən dövlət başçımızın «Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!.» sözləridir**

**«Milli müstəqillik yolu qədər çətin yol yoxdur... Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir» söyləyən, müasir Azərbaycanın memarı, Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin əbədiliyi naminə göstərdiyi xidmətlər əvəzsizdir. Daim azadlıq ruhu ilə yaşayan xalqımız istiqlaliyyət yolunda məhrumiyyətlərlə, çətinliklərlə üzləşsə də iradəsindən dönmədi. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsini qəbul edərək Azərbaycan xalqının dövlət quruculuğunun çoxəsrlik ənənələrini dirçəltdi.**

Cəmi 23 ay yaşamasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradıcıları tam dövlət hakimiyyətinə malik, müstəqil xarici və daxili siyasət yeridən respublika qurdular. Müstəqil dövlətə xas olan təsisatları - parlamenti, hökuməti, ordusu, maliyyə sistemi olan, xarici dövlətlər tərəfindən tanınan və müxtəlif dövlətlərlə diplomatik münasibətlər yaradan Cümhuriyyətin qurucuları çətinliklərə baxmayaraq xalqda gələcəyə böyük inam yaratmışdılar. 1920-ci il aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən öz silahlı qüvvələrini Azərbaycana yeridərək onun suveren Azərbaycanın ərazisini işğal etdi, hakimiyyət orqanlarını zorakılıqla devirdi. Azərbaycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoydu. SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqaviləyə əsasən Azərbaycan yenidən Rusiya tərəfindən ilhaq edildi. Sovetlərin tərkibində olduğu 70 ildə müstəmləkəçilik altında qalan, «qardaşlıq ailəsi»nin üzvü Azərbaycanın təbii sərvətləri « qırmızı imperiya» tərəfindən amansızcasına istismar olunur, xalqımızın çoxəsrlik tarixinin, milli adət-ənənələrinin unudulması üçün təzyiqlər göstərilirdi. Xalqımızın düşünən beyni olan qabaqcıl ziyalılar təqiblərə, cəza tədbirlərinə məruz qalır, milli ləyaqətləri tapdalanırdı. Bütün bunlara baxmayaraq Azərbaycan xalqı dövlət müstəqilliyi uğrunda mübarizədən dönmürdü. Çox mürəkkəb bir dövrdə yaranan AXC-nin fədailəri istiqlaliyyətinə qovuşan insanların istəklərini reallaşdırsa da niyyətlərini sonuna qədər davam etdirə bilmədilər.

O dövrdə ictimai işlərdə qadınların rolunun artırılması üçün qəbul olunan qərarlara əsasən məktəblər açıldı, xeyriyyəçilik ənənəsi davam etdirildi, qadınların təhsilə cəlbi çətinliklə də olsa həll edildi. Azərbaycanın xarici ölkələrlə birbaşa diplomatik əlaqələri yaradıldı. Ordu quruculuğu sahəsində ilk addımlar atıldı. Bank, maliyyə sistemi formalaşdırıldı.

Bolşeviklər tərəfindən Azərbaycanın istilasından sonra imperiyanın tərkibinə daxil edilən, SSRİ ailəsinin bir üzvü kimi azərbaycanlılar da kommunist üsul-idarəsinin sərt rejiminin ağrı-acılarını yaşamış, repressiyalarla üzləşmiş, mədəniyyətinə, mənəviyyatına, adət -ənənələrinə vurulan zərbələrdən sarsılmışdı. Sovetlər birliyinin tərkibində yaşasa da, dövlət müstəqilliyindən məhrum olsa da xalqımız varlığını, dilini, islamı dəyərlərini qoruyub saxlamış, savadsızlığa qarşı elliklə mübarizəyə qoşulmuşdur.

«Biz Azərbaycanda ilk demokratik respublikanın qurulmasında, yaranmasında göstərdikləri xidmətlərə görə Əlimərdanbəy Topçubaşova, Fətəli xan Xoyskiyə, onların silahdaşlarına bir daha öz minnətdarlığımızı, təşəkkürümüzü bildiririk. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır» söyləyən Ulu Öndər Heydər Əliyev vurğulayırdı ki, Azərbaycanın istiqlaliyyətini elan edənlər, Xalq Cümhuriyyətini qurub- yaradan və ona sona qədər sadiq olanlar Azərbaycanın ən mötəbər , ən görkəmli tarixi şəxsiyyətləridirlər. Zaman göstərdi ki, adı həmişə Azərbaycanla bir çəkilən, tarixi şəxsiyyətlər arasında ən böyük hörmətə layiq olanlardan birincisi Ulu Öndər Heydər Əliyev AXC qurucularının yarımçıq arzularını həyata keçirdi, müstəqilliyimizin əbədi qarantı oldu. «Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir» deyən xalqına bağlı dahi Heydər Əliyev oldu. Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə müstəqilliyimizin əbədiliyi naminə misilsiz xidmətləri ilə Ümummilli Lider adını qazanan Heydər Əliyev ən çətin günlərdə xilaskar kimi milyonların bələdçisi oldu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi müddətdə 1991-ci ilin mart ayında SSRİ-nin saxlanılması ilə əlaqədar keçirilən referenduma «yox» deməklə Azərbaycanın suverenliyini

müdrikliyi ilə qoruyan Ümummilli Lider Heydər Əliyev qətiyyəti ilə bir ordunun şücaəti qədər siyasi iradə, cəsarət göstərdi. 17 noyabr 1990- cı ildə keçirilən Naxçıvan MR Ali Məclisinin iclasına müdrik şəxsiyyət, deputat kimi sədrlik edən Ulu Öndərin təşəbbüsü ilə «Naxçıvan MSSR»-in adının dəyişdirilməsi, dövlət atributları sayılan AXC-in üçrəngli bayrağının, himn və gerbinin bərpası barədə qərarın qəbulu tarixi hadisə idi. 1990- cı ildə Bakıda törədilmiş Yanvar hadisələrinə siyasi qiymətin verilməsinə həsr olunmuş Azərbaycan SSR Ali Sovetinin yarımçıq dayandırılmış sessiyasını qətiyyətlə pisləyərək Naxçıvan MR Ali Məclisinin sessiyasında bu məsələnin müzakirəsini aktuallaşdırmaqla xalqımıza qarşı törədilən təcavüzə siyasi qiymət verdi. Fəaliyyətinin Naxçıvan dövrünü əhatə edən illərdə ən böyük xidmətlərindən biri, diaspor fəaliyyətinin təməlini qoyan 31 dekabr- Dünya Azərbaycan türklərinin milli həmrəylik və birliyi barədə qərarın qəbulu idi. SSRİ-nin cənub sərhədlərini qoruyan sovet ordusunun hərbi arsenalı, silah-sursatı muxtar respublikada qalmaqla bütün ordu hissələrinin Naxçıvandan çıxarılmasına nail oldu. Məhz o illərdə yaradılan Naxçıvanın İnkişafı və Müdafiəsi Fonduna yığılan vəsait Milli Ordunun möhkəmlənməsinə sərf olundu. Respublikada ilk sərhəd dəstəsi də Ulu Öndərin qətiyyəti ilə muxtar respublikada yaradıldı.

Ulu Öndər Naxçıvanda çalışarkən bütün Azərbaycan üçün göstərdiyi xidmətlərdən biri də respublikanın sərhədlərinin , Naxçıvanın ermənilər tərəfindən işğalının qarşısının alınmasına yönəldilmiş Qars müqaviləsinin təzələnməsi idi. Blokadada qalan naxçıvanlıların çətin vəziyyətdən çıxması üçün qonşu İran və Türkiyə ilə əməkdaşlıq gücləndi. Böyük şəxsiyyət olan Heydər Əliyevin şəxsi nüfuzu bu sahədə də özünü doğrultdu. Naxçıvana hər iki qonşu dövlətdən ərzaq , sənaye malları ən başlıcası isə enerji verildi. Türkiyə ilə əlaqələrin möhkəmləndirilməsi üçün «Ümid körpüsü» salındı. Paytaxt Bakı ilə yeganə nəqliyyat yolunun intensiv fəaliyyəti üçün geniş imkanlara malik Naxçıvan hava limanı, Bakıda isə muxtar respublikanın nümayəndəliyi açıldı.

SSRİ-nin dağılması ilə 1991-ci il oktyabrın 18-də müstəqilliyinin bərpasını Konstitusiya Aktı ilə elan edən Azərbaycan suveren dövlət kimi tanındıqdan sonra xalqımızın üzləşdiyi çətinliklər növbəti dəfə müstəqilliyimizin varlığını şübhə altına aldı. 1992-ci ilin yay aylarından 1993-cü ilin iyun ayına qədərki dövr biabırçılıq, rüsvayçılıq, fəlakət dövrü idi. Hakimiyyəti qanunsuz olaraq zəbt etmiş AXC-Müsavat qruplaşması ölkəmizi uçuruma aparırdı. Kəlbəcər rayonunun 1993-cü ilin aprel ayında işğal altına düşməsindən sonra Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. Azərbaycanın daxilində gedən proseslər ölkədə xaos yaratdı. İqtisadiyyat, o cümlədən sənaye demək olar ki, iflic vəziyyətə düşmüşdü. Ovaxtkı hakimiyyət ancaq öz maraqlarını təmin etmək üçün çalışırdı. Korrupsiya, rüşvətxorluq son həddə çatmışdı. Qanunsuz silahlı birləşmələr xalqı təşvişdə saxlayırdı. Bakının küçələrində əlisilahlı adamlar dəstə-dəstə gəzirdi, insanları incidirdi. Ermənistanın torpaqlarımızı zəbt etdiyi həmin dövrdə ölkədə yaranan, hökm sürən inamsızlıq müstəqilliyimiz üçün təhlükə yaradırdı.

O dövrdə ölkədə yaranan vəziyyəti «AXC-Müsavat qruplaşması Azərbaycanda öz hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsinə başlamışdı. Gəncə şəhəri onlar tərəfindən bombalanmışdı, qardaş qanı axıdılmışdı və bunun nəticəsində biz daha da böyük itkilərlə üzləşdik.

Cəmi bir il ərzində AXC-Müsavat qruplaşmasının yarıtmaz, xəyanətkar fəaliyyəti nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini itirmək ərəfəsində idi və tarix sanki təkrarlanırdı. 1918-ci ildə əldə edilmiş müstəqilliyi 1920-ci ildə itirdik - 2 il ərzində. Bu dəfə də 2 ildən sonra artıq buna çox yaxın idik. Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevi Naxçıvanda devirmək, o cümlədən silahlı desant göndərmək istəyən AXC-Müsavat qruplaşması özü də ağır vəziyyətə düşəndən sonra Heydər Əliyevə müraciət etdi, onu Bakıya dəvət etdi ki, onların canlarını qurtarsın. Naxçıvana üç dəfə təyyarə göndərmişdilər» sözləri ilə xarakterizə edən Prezident İlham Əliyev müdrik şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışını xalqın qarşısıalınmaz iradəsi adlandırıb.

1993-cü ilin iyun ayında Bakıya gələn, Gəncə qiyamını yatırmaqla Azərbaycanı parçalanmaq təhlükəsindən xilas edən qətiyyətli siyasətçi Heydər Əliyevin Ali Sovetin Sədri, sonra ölkənin Prezidenti seçilməsi ilə respublikada inkişafa doğru addımlar atıldı. İlk növbədə, qanunsuz silahlı birləşmələr tərksilah edildi, ordu quruculuğunda ciddi islahatlar aparıldı, dövlətçiliyin əsasları qoyuldu, sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul olundu. Müasir Azərbaycanda siyasi sistemi formalaşdıran Yeni Azərbaycan Partiyası yaradıldı.

Respublikaya rəhbərliyinin hər iki dönəmində dövlət müstəqilliyini qoruyan, ölkənin bazar iqtisadiyyatı yolu ilə tərəqqisinə şərait yaradan, siyasi bilik və bacarığına, dövlətçilik təcrübəsinə güvənən Ulu Öndərin qətiyyəti ilə dövlət müstəqilliyinə təhlükə olan separatçılıq hallarına son qoyuldu. AXC-Müsavat iqtidarı tərəfindən dağıdılan ölkəni inkişaf etdirən Ulu Öndər çıxış yolunu ölkəyə investisiya axınını sürətləndirməklə sosial, iqtisadi inkişafın perspektivlərini müəyyənləşdirdi.

«Əsrin müqaviləsi»nin imzalanması ilə dünyanın ən iri neft şirkətləri ölkəmizə dəvət edildi. Müəllifi olduğu neft strategiyasını həyata keçirən Ulu Öndər respublikamızın qüdrətlənməsini təmin edən investisiya siyasətinin əsasını qoydu. Azərbaycan tarixində 1970-1985-ci illərdəki təkamül də, 1993-2003-cü illərdə isə müstəqilliyin möhkəmlənməsi naminə göstərilən siyasi iradə, bacarıq, dövlətçilik təcrübəsi də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Bütün quruculuq işlərinə strateji xarakter kimi diqqət yetirən, güclü potensialı, qətiyyəti ilə xalqına, Vətəninə bağlılığını təsdiqləyən Ulu Öndər Heydər Əliyev tarixi xidmətləri ilə müasir Azərbaycanın yaradıcısı olduğunu təsdiqlədi. Müstəqilliyimizin əbədi qarantı kimi respublikanı daxili və xarici qüvvələrin təhdid, təzyiq və təsirlərindən qorudu. «İnsanlarda milli dirçəliş ideyasını yalnız milli liderlər həyata keçirə bilərlər» ifadəsi məhz onun simasında əksini tapdı.

Demokratiyaya ölkə əhalisinin ümumi mənafeyinə və istəyinə uyğun islahatların tətbiqi kimi dəyər verən Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi islahatları saymaqla bitməz. Azərbaycan Şərq aləmində ilk dəfə olaraq ölüm hökmünü ləğv edən ölkə kimi tanındı. İmzaladığı əfv fərmanları və amnistiya aktları ilə azadlıqdan məhrum edilən yüzlərlə məhbusu sağlam, ictimai fəaliyyətə qaytardı. Ölkədə söz, mətbuat ,vicdan azadlığı təmin edildi

2003-cü ildə keçirilən prezident seçkisi ilə əlaqədar xalqa müraciət edən Ümummilli Lider Heydər Əliyev üçün ölkə vətəndaşlarının ümumi rəyi başlıca faktor, meyar idi. Həmin müraciətdə deyildiyi kimi, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən Prezident İlham Əliyevin ölkə rəhbərliyinə tövsiyəsi , «İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyinizlə İlham Əliyev başa çatdıra biləcək» sözləri ilə Azərbaycanın dövlətçiliyini, xalqının taleyini özünün həyat fəlsəfəsinin davamçısına etibar edən Ulu Öndər növbəti dəfə fədakarlığını sübut etdi.

Bu strategiyanı daha əzmlə, inamla davam etdirən Prezident İlham Əliyevin daim diqqət göstərdiyi regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının həyata keçirilməsi ilə ölkədə böyük quruculuq işlərinə start verildi. Bütün bunların nəticəsində bu gün Azərbaycanın adı beynəlxalq maliyyə təşkilatlarının reytinq cədvəllərində ilk sıralarda çəkilir. Ən islahatçı ölkə kim nümunə göstərilir. Son illərdə baş verən qlobal iqtisadi böhrana baxmayaraq Azərbaycan iqtisadiyyatı dayanıqlığını qoruyub saxlayır. Ulu Öndərin inamını doğruldaraq, Onun siyasi məktəbinin layiqli davamçısı olduğunu yeritdiyi düzgün siyasəti , rəhbərlik təcrübəsi, iradəsi və qətiyyəti ilə sübut edən Prezident İlham Əliyev torpaqlarımızı Ermənistanın işğalından azad etməklə xalqımızın etimadını, ata vəsiyyətinə sadiqliyini doğrultdu. Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin «Heydər Əliyev İli» elan olunması, dövlət başçımızın bu ilin 10 may tarixində Şuşadan xalqımıza müraciəti müstəqilliyimizin əbədi qarantı Ulu Öndərin xidmətlərinə verilən dəyərdir. «2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, «Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!.» söyləyən Prezident İlham Əliyev bir daha təsdiqlədi ki, estafet etibarlı əllərdədir. Azərbaycanın müstəqilliyi əbədi, sarsılmaz və dönməzdir!